

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (20.845)

11 oktyabr 2013-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 10-da Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini anmış, məzarı önünə gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər güllər düzülmüşdür.

* * *

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Sərgi Mərkəzində "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi ilə tanış olmuşlar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə keçirilən prezident seçkilərində müşahidəçi kimi iştirak edən nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Pakistan İslam Respublikası Senatının sədr müavini Sabir Əli Bəlucun başçılıq etdiyi Pakistan Senatı və Milli Assambleyası üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

# Azərbaycan xalqı yenə də ulu öndər Heydər Əliyevin yolunu seçdi



*Oktyabr ayının 9-da müstəqil Azərbaycan Respublikasının tarixində sayca 7-ci prezident seçkiləri keçirildi. Bəri başdan qeyd edək ki, bu seçkilər də ölkəmizin siyasi demokratikləşmə mərhələsinə növbəti töhfə oldu.*

On namizəd arasında gedən seçkiqabağı mübarizə kampaniyasında prezidentliyə namizədlər öz seçki platformalarından, cəmiyyətin və dövlətin gələcəyi ilə bağlı görüşlərindən danışaraq seçiciləri özünün daha layiqli dövlət başçısı olacağına inandırmağa çalışdı. Lakin xalqımızın böyük əksəriyyəti bir daha pafoslu siyasi vədlərə aldanmayaraq Azərbaycan cəmiyyətinin, dövlətçiliyinin taleyini naşılara, səriştəsizlərə, keçmişi sabit olmadığı kimi, gələcək fəaliyyəti də qeyri-müəyyən olanlara etibar etmədi, müstəqil Azərbaycan dövlətinin varisliyini, üfüqdə aydın görünən gələcək inkişafını, son 20 ildəki uğurlarının davamını dəstəklədi. Son dörd seçkidə olduğu kimi, bu dəfə də xalqımız özünün və ölkəmizin gələcəyi üçün son dərəcə taleyüklü hadisə olan prezident seçkilərində düzgün seçim edərək növbəti dəfə milli dövlətçiliyin inkişafına – Heydər Əliyev yoluna səs verdi, öz taleyini yenidən Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə etibar etdi.

Bu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədindən başqa digər namizədlər, xüsusən radikal müxalifət düşərgəsinin nümayəndəsi öz seçki kampaniyalarını real olmayan bəlağətli vədlər və heç bir normal prinsiplərə söykənməyən qarışıq, natamam və qeyri-real vədlər, patetik şüarlar üzərində qurdular. Halbuki artıq kifayət qədər siyasi dünyagörüşü olan Azərbaycan seçicisinə özünü rəhbər layiq bilən namizədlər ölkənin aydın görünən inkişaf istiqamətlərini, heç olmasa, nəzəri olaraq özündə əks etdirən siyasi platformalar təqdim etməyə, sadəcə, borclu idilər. Seçiləcəkləri təqdirdə, xalqa hansısa dəyişikliklərdən bəhs edən seçki marafonçuları, görünür, Azərbaycan cəmiyyətinin arzuladığı köklü dəyişikliyi hələ 1993-cü ildə etdiyini belə, tez unutmuşlar. Xalq indiki halda əvvəlki illərdə özülü qoyulan fundamental siyasətin yeni-yeni bəhrələrini görmək arzusundadır və bu arzusunun həyata keçməsi üçün cənab İlham Əliyevin şəriksiz liderliyini çoxdan qəbul etmişdir.

Üstəlik, radikal müxalifətin adı mahiyyəti ilə qətiyyən uyğun gəlməyən "Milli Şura"sının namizədi və bu amorf qurumda təmsil olunan radikallar seçki kampaniyası başlayan ilk andan ənənəvi olaraq üzlərini onları özünə rəhbər seçəcək xalqa deyil, əvvəlcə şimala, sonra isə qərbə tutdular. Onsuz da cəmiyyətdə elektoral baxımdan ciddi sayıla biləcək sosial bazaya malik olmayan radikal müxalifət bununla növbəti dəfə öz qeyri-milli simasını özü ifşa etmiş oldu. Siyasi təbliğatını fəaliyyətdə olan dövlət başçısına iftira və böhtan atmaqla quran, ötən əsrin 90-cı illərinin əvvəllərindəki qeyri-sivil siyasi əxlaqı yenidən nümayiş etdirən amoralist radikal müxalifət və onun namizədi xaricdən ixrac ediləcək hansısa rəngli inqilablara ümid etdiyini bütün fəaliyyəti boyu gizlətmədi.

Lakin Azərbaycanda xaos, rəngli inqilablar arzulayanların öz xarici havadarlarının dirijor çubuğu ilə göstərdikləri bütün cidd-cəhdlərə baxmayaraq, Heydər Əliyev yolunun alternativsizliyi, dönməzliyi özünü gündən-günə daha bariz şəkildə göstərir.

Ölkənin gələcək taleyi baxımından son dərəcə taleyüklü hadisə olan prezident seçkilərinə aylarla, illərlə hazırlaşmaq, mütəmadi olaraq cəmiyyətlə işləmək lazım olduğu halda, seçki marafonuna namizəd kimi qoşulanların bir çoxu üçün bu hadisə yalnız 2 aylıq siyasi sınaq xarakteri kəsb etdi. Bu baxımdan yeganə namizəd məhz cənab İlham Əliyev idi ki, hələ prezident seçkilərinə on ay qalmış – 2012-ci il dekabrın 29-da təsdiqlədiyi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda bundan sonrakı ən yaxın perspektivdə ölkəmizin inkişafının bütün optimal inkişaf istiqamətlərini kamil şəkildə müəyyənləşdirərək həmin konsepsiyanı mühüm dövlət sənədi kimi Azərbaycan cəmiyyətinə təqdim etmişdi. Həmin konsepsiyada dünyada və ölkədə mövcud vəziyyət, müasir çağırışlar sintez şəklində təhlil edilmiş, 2020-ci ilədək olan dövrdəki strateji baxışlar və əsas prioritetlər düzgün müəyyənləşdirilmiş, yüksək rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğunun müxtəlif sahələri üzrə inkişaf prinsipləri işlənib hazırlanmışdır. Bu mühüm milli dövlətçilik konsepsiyasında ölkəmizin və cəmiyyətimizin inkişafı ilə bağlı elə bir sahə yoxdur ki, onun gələcək təkamülü prosesi, bu prosesin elmi-siyasi və nəzəri-əməli əsaslarının müəyyənləşdirilməsi diqqətdən kənarda qalsın. Xalqımız öz müdrikliyini nümayiş etdirərək məhz bu konsepsiyanın reallaşdırılmasına, onu həyata keçirə biləcək yeganə şəxsə səs verdi.

Başqa sözlə, xalq cənab İlham Əliyevin 10 illik prezidentliyi dövründə praqmatik, çevik, rasional, cəsarətli və qətiyyətli, verdiyi hər bir vədə sadiq qalaraq onu ən qısa zamanda həyata keçirən görkəmli dövlət xadimi olduğuna inamını yenidən isbatladı. Azərbaycan Prezidentinin xarizmatik portretinin təvazökarlığını və xəlqiliyini şərtləndirən ən başlıca cəhət isə budur ki, o, məhz özünün yürütdüyü müdrik siyasət nəticəsində əldə edilən bütün uğurları və nailiyyətləri yalnız Azərbaycan xalqının adı ilə bağlayır və bəyan edir ki, bütün nailiyyətlər məhz xalqımızın gücü, zəkası, iradəsi və müdrikliyi sayəsində mümkün olub. Cənab İlham Əliyev Azərbaycan dövlətinə rəhbərliyi dövründə özünün cahanşümul fəaliyyəti ilə optimal prezidentlik etalonunu yaradıb.

Xalq cənab İlham Əliyevə növbəti dəfə etimad göstərməklə, əslində, sözün tam mənasında, Azərbaycan dövlətçiliyinin mövcudluğuna səs verdi. 1993-2003-cü illərdə müstəqil dövlətçiliyin zəruri əsaslarını yaradan, Azərbaycanı dünya dövlətləri sırasına çıxaran, onun gələcək inkişafının bütün istiqamətlərini işləyib hazırlayan ümummilli lider Heydər Əliyevin milli dövlətçilik konsepsiyasını zənginləşdirən, yeniləşən siyasi zamanın tələbatına uyğun praqmatik siyasətlə və novatorcasına həyata keçirən cənab İlham Əliyev öz liderlik fəaliyyəti ilə yalnız Prezident kimi Azərbaycan dövlətçiliyinin simvolu olmaqla qalmadı. Eyni zamanda yürütdüyü dönməz və qətiyyətli müstəqil siyasətlə ulu öndərimizin nümunəsində bilavasitə milli müstəqilliyimizin başlıca qarantına və rəmzinə çevrildi.

2003-2013-cü illər məhz cənab İlham Əliyevin liderliyində ölkəmizin müstəqilliyinin daha da möhkəmləndirilməsi, xalqın rifah halının yüksəldilməsi baxımından çox mühüm və səmərəli bir mərhələ oldu. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə artdı və dünyanın 50 inkişaf etmiş iqtisadiyyatı sırasına daxil oldu, müasir infrastruktur quruldu, iqtisadiyyatın diversifikasiyası reallaşdırıldı. Dövlət büdcəsi bu illərdə 20 dəfə artaraq 25 milyard ABŞ dollarına çatdı. İşsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi 6 faizə endi. 910 mini daimi iş yeri olmaqla, 1,2 milyon yeni iş yeri yaradıldı və bu proses hazırda davam etməkdədir. Azərbaycan iqtisadiyyatına 150 milyard dollar sərmayə qoyuldu (bu həm də ölkəmizdəki ictimai-siyasi sabitliyin mühüm göstəricisidir), ölkənin strateji valyuta ehtiyatları 49,4 milyard dollara çatdı. Son 10 ildə Azərbaycanda 2708 məktəb, 500-ə yaxın tibb müəssisəsi tikildi və ya təmir edildi, 35 olimpiya-idman kompleksi inşa olundu. Pensiyalar 10 dəfə, maaşlar 6 dəfə, müdafiə xərcləri isə 20 dəfədən çox artdı. Bu il regionların sosial-iqtisadi inkişafını əhatə edən ikinci dövlət proqramının icrası başa çatır, 2014-cü ildə üçüncü proqramın icrasına başlanılacaqdır.

Artıq iqtisadiyyatda özəl sektorun çəkisi 83 faizə yüksəlib. Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatında 80 faizlik paya sahib olub. Ölkəmiz iqtisadiyyatının artım tempinə görə 2006-cı ildən başlayaraq dünyada ilk yerlərdə dayanır. Davos Ümumdünya İqtisadi Forumu qlobal rəqabətlilik üzrə hesabatında Azərbaycan iqtisadiyyatını rəqabətə davamlılıq baxımından 148 ölkə arasında 39-cu elan edib. Azərbaycan bu gün öz iqtisadiyyatına böyükhəcmli kapital qoyuluşu ilə yanaşı, xarici ölkələrdə də nəhəng iqtisadi layihələri reallaşdıran, öz strateji müttəfiqlərinə kredit verən donor ölkəyə çevrilib.

Ölkəmiz 2008-ci ildən başlayaraq hələ də davam edən beynəlxalq maliyyə böhranından son dərəcə effektiv sosial-iqtisadi siyasətlə nəinki xilas oldu, hətta bu böhran illərində belə, öz iqtisadiyyatını inkişaf etdirdi və artırdı. Yalnız bu faktı xatırlatmaq kifayətdir ki, 2013-cü ilin ötən dövründə Avropada işsizlik rekord həddə çatdığı halda, Azərbaycanda 90 min yeni iş yeri açılıb. Son illərdə Azərbaycanda ilk dəfə hərbi sənaye komplekslərinin yaradılması müharibə vəziyyətində olan və ərazisinin 20 faizi işğal edilmiş ölkəmizin silah idxalından asılılığını xeyli azaltdı.

Ardı 2-ci səhifədə

Azərbaycanın müdafiə sənayesi hazırda 750 adda məhsul istehsal edir.

1994-cü ilin sentyabr ayında Əsrin müqaviləsinin imzalanması ilə yeni neft strategiyasının əsası qoyulub. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri kimi mühüm transmilli layihələrin reallaşdırılması Azərbaycanın çox uğurlu bir enerji siyasəti yürütdüyünün göstəricisidir. Bu siyasət o qədər inkişaf etdi ki, 2012-ci ilin iyununda TANAP (Trans Anadolu Qaz Boru Kəməri) və 2013-cü ilin fevralında TAP (Trans Adriatik Qaz Boru Kəməri) kimi nəhəng enerji layihələrinə imza atıldı. XXI əsrin iqtisadi möcüzələri sayıla biləcək bu layihələrin reallaşdırılması ilə Azərbaycan Qərbi Avropanın aparıcı dövlətlərinin on ildən bəri müzakirə etdiyi, lakin yekun qərara gələ bilmədikləri Nabucco-West layihəsinin ən azı bir müddət üçün (bəlkə də həmişəlik) tarixin arxivinə göndərilməsini şərtləndirdi. Çünki əvvəllər cidd-cəhdlə Nabucco layihəsini dəstəkləyən ölkələrin böyük əksəriyyəti hazırda TAP layihəsinin tərəfdarı kimi çıxış edir. Başqa sözlə, məhz Azərbaycanın mövqeyi hazırda Avropanın enerji siyasəti üçün həlledici oldu ki, bu da ölkəmizin beynəlxalq aləmdə oynadığı rolun ən bariz nümunəsidir. Hazırda Azərbaycan neft və neft məhsullarını dünyanın 30-dək ölkəsinə ixrac edir. Bəzi Avropa dövlətlərinin enerji balansında Azərbaycan neftinin 25-30 faiz təşkil etməsi ölkəmizin beynəlxalq enerji təhlükəsizliyində artan rolunun göstəricisidir.

Cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə ölkənin yol-nəqliyyat infrastrukturunu inkişaf etdirmək istiqamətində həyata keçirdiyi geniş tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində (TRACECA) Azərbaycanın mühüm tranzit ölkəsi kimi əhəmiyyətini daha da artırıb. Bir başqa adı Böyük İpək Yolu olan bu beynəlxalq nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində yük və sərnişin daşımaları 2004-cü ildən etibarən ilbəil artmağa başladı. Azərbaycan həm tranzit ölkə kimi mövqeyini gücləndirdi, həm də mühüm strateji mövqe qazanmış oldu. Asiyanı Avropa ilə birləşdirəcək nəhəng strateji nəqliyyat layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi də başa çatmaq üzrədir.

Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Baş Məclisinin plenar iclasında 155 dövlətin dəstəyini alaraq 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Ötən ilin may ayında bu mötəbər beynəlxalq quruma sədrlik edən ölkəmiz bu il oktyabr ayının 1-dən yenidən bu missiyanı həyata keçirməyə başlayıb. Ermənistanın işğalçı siyasətinin beynəlxalq aləmdə ifşası ilə bağlı Azərbaycanın fəal hücum diplomatiyası və xarici siyasəti yeni mərhələyə qədəm qoyub, qısa müddətdə dünyanın altı dövlətinin və ABŞ-ın səkkiz ştatının Xocalı soyqırımını tanımasına nail olunub.

2013-cü il fevralın 8-də Azərbaycanın ilk kosmik peyki – "Azərspace-1" fəzaya buraxılıb və cəmi 3 ay sonra gəlir gətirməyə başlayıb. Bununla Azərbaycan dünyada orbitdə peyki olan 11 ölkənin sırasına qoşulub, kosmik sənaye ölkəsinə çevrilib.

Son on ildəki ən böyük uğurumuz möhtəşəm Prezidentimizin öz sözləri ilə desək, bu illər ərzində Azərbaycanın müstəqillik yolundan dönməməsidir: ***"Müstəqillik, sadəcə olaraq, dövlət atributları deyildir. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara bilir, yoxsa yox. Xüsusilə böyük olmayan ölkələr üçün bu, daha aktualdır. Xüsusilə böyük güc mərkəzlərinin maraqlarının kəsişdiyi bir coğrafi məkanda yerləşən ölkələr üçün bu, aktualdır. Bu məkanda, bu qonşuluqda təbii sərvətlərlə zəngin olan Azərbaycan müstəqil siyasət aparır və aparacaqdır. Bizim təcrübəmiz onu göstərir ki, bu, mümkündür... Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır".***

Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan gənc Azərbaycan dövləti geosiyasi baxımdan olduqca dinamik və mürəkkəb bir regionda yerləşir. Azərbaycan bir çox hallarda dünya siyasətindəki güc sahibi olan dövlətlər və bir sıra beynəlxalq qurumlar tərəfindən fasiləsiz təzyiqlər şəraitində öz müstəqilliyini uğurla qoruyub saxlamaqdadır. Dövlət başçısı bütün görünən və görünməyən əngəllərə rəğmən yalnız və yalnız Azərbaycan xalqının mənafelərinə xidmət edən müstəqil siyasət yürüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz böyük regional amilə çevrilib: ***"Bu gün Azərbaycan öz gücünə arxayın olan, öz gücünə arxalanan, bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda təcrübəli ölkədir. Azərbaycan artıq böyük bir regional amildir. Sabitlik, təhlükəsizlik və inkişaf amilidir".***

Cənab İlham Əliyev prezident seçkilərindən iki gün əvvəl Nazirlər Kabinetinin oktyabr ayının 7-də keçirilən 2013-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizin müstəqillik yolunda bundan sonra da qətiyyətlə addımlayacağını bildirərək demişdir: ***"Biz öz milli maraqlarımızı müdafiə edirik, necə lazımdır müdafiə edirik. Eyni zamanda biz bütün ölkələrlə əməkdaşlığa açığıq. Bizim xarici siyasətlə bağlı yanaşmamız əməkdaşlıq üzərində qurulubdur. Biz heç bir ölkənin daxili işinə qarışmırıq. Görəndə ki, kimsə bizim daxili işimizə qarışmaq istəyir, əlbəttə ki, buna kəskin reaksiya verilir və biz buna da imkan vermirik. Son on ilin təcrübəsi göstərir ki, belə səylər əbəsdir. Əgər əvvəllər kimsə hesab edirdi ki, Azərbaycana təzyiq etmək, hansısa məsələlərin həllində təsir etmək olar, hesab edirəm ki, indi ölkələrin, xarici, beynəlxalq qurumların əksəriyyəti dərk edir ki, bizimlə diktat dili ilə danışmaq mümkün deyildir. Adekvat reaksiya olacaqdır və ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. Heç kimdən asılı, heç kimin qarşısında gözükölgəli deyil, öz yolu ilə, müstəqillik, inkişaf yolu ilə gedir və bundan sonra da gedəcəkdir. Hər bir ölkə ilə münasibətləri biz bax bu əsaslar üzərində qururuq. Hesab edirəm ki, bu sahədə də qeyd etdiyim kimi, bizim təcrübəmiz bəzi ölkələr üçün çox maraqlı ola bilər".***

Prezident İlham Əliyevin bu sözləri hər bir Azərbaycan vətəndaşının müstəqilliyimizi qürur mənbəyinə çevirən real fəaliyyətinin ifadəsidir. İqtisadiyyatın, xalq təsərrüfatının, daxili və xarici siyasətin bütün sahələri üzrə əldə edilən nailiyyətləri bir məqalədə sadalamaq mümkün olmasa da, güman edirik ki, nəzər saldığımız bu başlıca sahələr son 10 ildə müstəqil Azərbaycanın möhtəşəm inkişaf mənzərəsini təsəvvür etməyə imkan verir. Bu təsəvvürdən sonra isə xalqın İlham Əliyevə sonsuz etibarı və etimadı formulunun 2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərində bir daha təsdiqlənməsi yalnız siyasi qanunauyğunluq və ədalətin zəfəri kimi qəbul olunmalıdır.

Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdir ki, ***"Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".*** Bu mənada ölkə vətəndaşları özlərinin mərkəzində durduqları siyasətə səs verdilər.

***Azərbaycan xalqı artıq üçüncü dəfədir ki, cənab İlham Əliyevi özünə Prezident seçməklə müdrikcəsinə siyasi sabitliyə, sosial-iqtisadi inkişafa, mədəni yüksəlişə, öz dövlətinin artan beynəlxalq nüfuzuna, milli istiqlaliyyətin dönməzliyinə, varlığı qürur və fəxarət doğuran müstəqilliyə səs verdi. Azərbaycan seçicisi növbəti dəfə qətiyyətlə "İLHAM ƏLİYEV!" deməklə müstəqil Azərbaycanın bundan sonrakı mövcudluğuna səs verdi!***

***Xalq son seçkilərdə də özünün xoşbəxt və firavan gələcəyinə doğru yürüdüyü istiqamətə – HEYDƏR ƏLİYEV YOLUNA davam dedi!***

**Elman CƏFƏRLİ**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı,*
*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri*

# Naxçıvan ziyalıları cənab İlham Əliyevin qələbəsini xalqın zəfəri, ali həqiqətin, demokratiyanın qalibiyyəti hesab edirlər

***Hüseyn HƏŞİMLİ – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru, Əməkdar elm xadimi:***



– Ölkəmizdə 9 oktyabr 2013-cü il tarixdə keçirilən prezident seçkiləri müstəqil Azərbaycanın tam demokratik, azad və şəffaf seçki keçirmək sahəsində qazandığı böyük uğurun parlaq təzahürü olmaqla yanaşı, xalqımızın cənab İlham Əliyevə hüdudsuz inam və etimadının növbəti möhtəşəm təntənəsinə çevrildi. Xalqımız növbəti dəfə böyük müdriklik və yekdillik göstərərək, müstəqil Azərbaycanın qurucusu olan ulu öndərimiz Heydər Əliyevin siyasi kursuna ardıcıl sədaqət nümayiş etdirərək görkəmli dövlət xadimi İlham Əliyevi yenidən ölkə Prezidenti seçdi. Cəmiyyətin müxtəlif təbəqələrinə mənsub milyonlarla seçicinin mütləq əksəriyyətinin dəstəyini qazanan cənab İlham Əliyevin bu qələbəsi onun ötən on il ərzində müstəqil Azərbaycana uğurla rəhbərlik etməsinin, ölkəmizi hər gün yeni nailiyyətlərə qovuşdurmasının, xalq arasındakı böyük nüfuz və hörmətinin qanunauyğun, məntiqi nəticəsidir, bütövlükdə, xalqın zəfəridir, ali həqiqətin, demokratiyanın qalibiyyətidir.

Ölkəmizin, o cümlədən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, bu gün özünün əsl intibah dövrünü yaşayan muxtar respublikamızın bütün ziyalıları kimi, mən də prezident seçkilərində cənab İlham Əliyevə səs vermişəm. Müdrik Prezidentimiz sosial-iqtisadi və mədəni həyatın bütün digər sahələri ilə yanaşı, maarifə, elmə, təhsil işçilərinə, alimlərə daim böyük diqqət və qayğı göstərir. Bu sahələrin hərtərəfli yüksəlişi, eləcə də elmi-pedaqoji kadrların əməyinin layiqincə qiymətləndirilməsi, maddi və mənəvi cəhətdən stimullaşdırılması həmişə Prezidentimizin diqqət mərkəzindədir. Təkcə son illərdə təhsilin inkişafı ilə bağlı on altı dövlət proqramı qəbul olunaraq uğurla həyata keçirilmiş və keçirilməkdədir. Ölkəmizin paytaxtından başlamış ucqar dağ kəndlərindədək hər bir yaşayış məntəqəsində təhsil ocaqlarının yenidən qurulması, ən müasir avadanlıqlarla təchiz olunması, təlimin keyfiyyətinin yüksəldilməsi, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından tədris prosesində geniş istifadə sahəsində nəhəng işlər görülmüşdür. Bu cəhətdən Naxçıvan Muxtar Respublikasında da digər sahələrlə bərabər, təhsil sektorunun möhtəşəm yüksəlişi qəlbimizi iftixar hissi ilə doldurur. Təbii ki, bütün xalq bu istiqamətdə həyata keçirilən tədbirləri alqışlayır, minnətdarlıqla qarşılayır və davamını istəyir.

Biz ziyalılar cənab İlham Əliyevə səs verməklə Azərbaycan təhsilinin növbəti illərdə yüksəlişinin davam etməsinə, cəmiyyət həyatında rolunun daha da artmasına səs vermişik. Möhtərəm Prezidentimiz bundan sonra da xalqımızı qələbədən qələbəyə aparacaq, ***"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir",*** – deyən ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu ən yüksək səviyyədə həyata keçirməkdə yeni-yeni uğurlara imza atacaq!

***Yazgül RZAYEVA – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının əməkdar həkimi:***



– Azərbaycan Respublikası Prezidentinin oktyabr ayının 9-da keçirilən növbəti seçkisi Vətənini və dövlətini sevən, onun uğurlarına sevinən, müstəqil respublikası ilə fəxr edən bütün vətəndaşlarımızın ulu öndərimizin yoluna sədaqətinin növbəti nümayişi oldu. Bu taleyüklü kampaniya bir daha onu göstərdi ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz şəraitdə inkişafına imkan verən yeganə strateji seçim olduğunu bütün varlığı ilə qəbul edir. Ona görə də bu seçkidə Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi Prezident cənab İlham Əliyevin mütləq səs çoxluğu ilə qalib gələrək Azərbaycan Prezidenti seçilməsi ölkəmizdə uğurla davam etdirilən Heydər Əliyev siyasətinin növbəti qələbəsidir. Ümummilli liderimizin hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində özünün layiqli davamçısı kimi cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər Azərbaycan xalqının öz seçimində qətiyyən yanılmadığını bir daha təsdiqləyir.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 10 ilə qısa ekskurs etsək, ölkə başçısının böyük qələbələrə imza atdığını görərik. Bu illər ərzində nələrə nail olunmayıb? İqtisadiyyat, elm, təhsil, səhiyyə və digər sahələr daim dövlət başçısının diqqətində olub. Səhiyyə işçisi kimi bu sahədə görülən işləri qeyd etsəm, çox böyük siyahı alınar. Bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu əməli işi ilə təsdiqləyən dövlət başçısı cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi strateji siyasət kursunu səhiyyə sistemində də uğurla davam etdirir.

Bu vacib sahənin inkişafı, onun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Regionlarda idman-sağlamlıq, diaqnostika-müalicə mərkəzlərinin və bu qəbildən olan digər obyektlərin istifadəyə verilməsi artıq ənənə halını alıb. Səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, müasir tibb infrastrukturunun yaradılması muxtar respublikamızda da həyata keçirilən sosial islahatların mühüm tərkib hissəsini təşkil edir. Bu gün istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində əhaliyə nümunəvi tibbi xidmət göstərilir, yeni tibb müəssisələri tikilir, səhiyyə ocaqları müasir tibbi avadanlıqlarla təchiz edilir. Ucqar dağ kəndlərində belə, bu gün müasir səhiyyə müəssisələri fəaliyyət göstərir. Onların maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətini daha da yaxşılaşdırıb.

Bütün bunlara görə ölkə vətəndaşları, eləcə də minlərlə səhiyyə işçisi alternativi olmayan siyasi strategiyanın həyatımıza gətirdiyi nailiyyətlərə, dövlətçilik təməli bu uğurlarla möhkəmlənən, özünün xoşbəxt sabahına doğru inamla irəliləyən, inkişaf edən Azərbaycana səs verdilər. Azərbaycanın dinamik sosial-iqtisadi yüksəlişini təmin etmiş Heydər Əliyev siyasi kursunun davam etdirilməsi növbəti prezident seçkiləri ərəfəsində əhalinin həlledici çoxluğunun prinsipial iradəsi kimi diqqət çəkirdi. Bu siyasi kursun davamlılığının təmin olunması, hər bir fərdin perspektiv mənafeyinə hesablanmış siyasi, hüquqi, sosial-iqtisadi, humanitar islahatların ardıcıl şəkildə davam etdirilməsi Azərbaycan vətəndaşlarının növbəti dəfə ciddi siyasi iradə nümayiş etdirmək əzmində olduğunu aydın büruzə verdi. Mütləq çoxluğun mövcud siyasi kursa alternativ görməməsi və səmimi şəkildə inanaraq onu inkişafın ən etibarlı təminatçısı kimi qəbul etməsi isə son on ilin böyükhəcmli reallıqlarına əsaslanır.

**Sara ƏZİMOVA**

# “Rəşadətli əməyə görə” nişanlarının təqdimat mərasimi keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yanğın təhlükəsizliyi işçilərinin “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsi haqqında” 8 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təltif edilən yanğın təhlükəsizliyi işçilərinə “Rəşadətli əməyə görə” nişanının təqdimat mərasimi keçirilib.

Mərasimdə fövqəladə hallar naziri, general-mayor Şamı Abdullayev çıxış edərək ölkəmizdə yanğından mühafizə xidmətinin inkişaf dövrlərindən danışıb, muxtar respublikamızda bu sahəyə göstərilən diqqət və qayğıdan bəhs edib. Qeyd olunub ki, muxtar respublikamızda yanğın təhlükəsizliyi orqanları üçün hərtərəfli şərait yaradılıb, Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar tikilərək və ya əsaslı təmir olunaraq şəxsi heyətin istifadəsinə verilib. Bundan əlavə, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb, Dövlət Yanğın Təhlükəsizliyi əməkdaşlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 8 oktyabr 2013-cü il tarixli Sərəncamı dediklərimizə sübutdur.

Sonra Naxçıvan Muxtar Respublikasında yanğın təhlükəsizliyi sahəsində fəaliyyətlərinə görə təltif edilən yanğın təhlükəsizliyi işçilərinə “Rəşadətli əməyə görə” nişanları təqdim olunub.

Tədbirə Şamı Abdullayev yekun vurub.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində müxtəlif ixtisaslar üzrə tədris olunan mövzuların muxtar respublikada fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərində, elmi-tədqiqat mərkəzlərində keçilməsi ənənə şəklini almışdır. Bu cür keçilən dərslər tələbələrin elmi-nəzəri biliklərinin əyani şəkildə möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvanşünaslıq Mərkəzində keçilmiş belə dərslərdən birində Azərbaycan tarixi kafedrasının müəllimi, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tarix müəllimliyi ixtisasının II kurs tələbələrinə “Naxçıvanşünaslıq” seçmə fənni üzrə “Naxçıvanşünaslıq Mərkəzinin yaradılması və mədəni irsimizə dövlət qayğısı” mövzusunda mühazirə oxumuşdur.***

# Naxçıvanşünaslıq maraqla tədris olunur

Dərsdə ulu öndər Heydər Əliyevin tariximizin milli zəmində araşdırılması və təbliği, milli-mənəvi dəyərlərimizin yaşadılması, mədəni irsimizin qorunması və bərpasındakı əvəzsiz xidmətlərindən bəhs edilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 1996-cı ildə keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu ilə Naxçıvanşünaslığın əsası qoyulmuş, muxtar respublikada bu mövzu ilə bağlı beynəlxalq elmi konfrans və simpoziumlar keçirilmiş, qədim diyarın müxtəlif ərazilərində arxeoloji araşdırmalar aparılmış, mühüm elmi nəticələr əldə edilmişdir. “Muxtar respublika ərazisində 800-dən artıq yeni tarixi abidə aşkar edilmiş, 1200-dən çox tarix və mədəniyyət abidəsi pasportlaşdırılmış, Naxçıvanşünaslıqla bağlı çoxsaylı monoqrafiya və dərsliklər, məlumat nəşrləri çap olunmuşdur”, – deyən tarixçi alim bu ilin fevral ayında Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilən Naxçıvanşünaslıq Mərkəzinin müxtəlif çap məhsulları, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanılmasında, bu qədim diyarın tarixinin, tarixi abidələrinin, dövlətçilik ənənələrinin, folklorunun öyrənilməsi və təbliğində mühüm rol oynadığını vurğulamışdır.

Tələbələrdən Mahnur Həsənovanın “Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçvanın tarixinin və mədəni irsinin öyrənilməsi və təbliği ilə bağlı imzaladığı sərəncamlar”, Türkan İmanlının “Azərbaycan folklorunda dünya modeli və mifoloji obrazlar”, Mədinə Rəhimlinin “Naxçıvanın qədim abidələri”, Zeynəb Məmmədovanın “Orta əsr abidələri”, Xaqan Ağəlisoyun “Gəmiqaya təsvirləri”, Zümrüd Ağayevanın “Gəmiqaya rəsmlərinin topoqrafiyası və öyrənilmə tarixi” mövzularında hazırladıqları slayd və seminar mətnləri maraqla qarşılanmışdır.

Dərsin sonunda tələbələr Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyəti ilə tanış olmuşlar.

**Mehriban SULTAN**

***Təbiəti bütün gözəllikləri ilə görmək, kəndlərimizin mənzərəsi ilə yaxından tanış olmaq işimizlə əlaqədar olaraq bizə tez-tez nəsib olur. Kəndlərimizin təbii gözəlliyi, oradakı yeniliklər həmişə diqqətimizi cəlb edir. Kənd deyiləndə ilk olaraq göz işlədikcə uzanan yaşıllıqlar içində görünən çay daşlarından hörülmüş evlər, qoyun-quzu sürüləri, bağ-bağatlar, göz yaşı kimi bulaqlar gözümüzün önündə canlanır. Təbii ki, bir də yöndəmsiz, nizamsız yolları, insanların çətin məişət şəraitində yaşamasını xatırlayırıq. Ancaq indi kəndlərimizin mənzərəsinə yeni rənglər, çalarlar əlavə edilib, kəndlinin zaman- zaman qarşılaşdığı çətinliklər arxada qalıb.***

# Qurucu insanların qalaya çevirdiyi yurd yerlərindən biri:




Ölkəmiz qüdrətləndikcə kəndlərimizin də mənzərəsi dəyişilib, bu yaşayış məntəqələrinə yeni həyat bəxş edilib. Qara çıraqları par-par yanan neon lampaları, hisli-tüstülü odun sobalarını mavi alovla şölələnən ocaqlar əvəz edib. Bütün bu inkişafın ötən günlərdə yolumuz düşdüyü Çalxanqala kəndində də şahidi olduq, kənddən çox müasir qəsəbəyə bənzəyən bu yaşayış məntəqəsinin xeyli dərəcədə dəyişməsindən haqlı qürur hissi keçirdik. Gördük ki, insan zəkası, insan amilinə diqqət mümkünsüzü mümkün edib.

Əvvəllər kənd yollarının keçilməz olması həmişə bu yerlər haqqındakı xoş xatirələrimin üzərinə kölgə salıb. Yolların yağışlı və qarlı günlərdəki vəziyyətini təsəvvür edib kəndlərin hər kəs tərəfindən unudulduğunu fikirləşdiyim vaxtlar da olub. Ancaq avtomobilimiz Çalxanqalaya doğru yol alanda bir daha kəndlərimizin nə qədər böyük qayğı ilə əhatə olunduğunun şahidi oldum. Bu dağətəyi kəndin yolu şəhər yollarından keyfiyyətinə və gözəlliyinə görə heç də fərqlənmir. Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2011-ci il 2 sentyabr tarixli Sərəncamına əsasən, 39,2 kilometrlik Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu yenidən qurulub. Layihə çərçivəsində yolun hərəkət hissəsinin eni 7,2, yol yatağının eni isə 8,5 metrədək genişləndirilib. İki hərəkət zolağından ibarət olan yolun üzərində 1 körpü, 5 su keçidi və 51 suötürücü inşa olunub, yolun müxtəlif hissələrində beton suaxıdıcı kanallar tikilib. Yolun yaşayış məntəqələrindən keçən hissəsində 4416 metr uzunluğunda hasar çəkilib, əsas yola birləşən köməkçi yollar təmir edilib.

Kəngərli rayonunun dağətəyi zonada yerləşən qədim yaşayış məntəqəsi, ulu tarixin izlərini bu gün də yaşadan yurd yeri Çalxanqala tarixin daş yaddaşı olan qalası ilə tanınır. Kəndin yaxınlığındakı dördkünc formada olan abidə-qala Çalxan dağının üzərində hündür bir ərazidə yerləşir. 1969-cu ildən burada tədqiqatlar aparılmasına başlanılıb. Müəyyən edilib ki, qalanın tarixi eramızdan əvvəl ikinci minilliyə aiddir. 0,7 hektar sahəni əhatə edən qalanın divarları iri daşlardan hörülüb. Divarların üst tərəfinin inşasında çiy kərpicdən istifadə edilib. Qalanın əsas giriş yolu cənub tərəfdəndir. Daha doğrusu, Cəhriçayın sağ sahilindən başlayır. Bu yolla qalaya qalxmaq mümkündür. Yol boyu qayaaltı sığınacaqlar var. Tədqiqatçıların fikrincə, bu sığınacaqlardan yaşayış yeri kimi istifadə edilib. Burada məskunlaşmış əhalinin müdafiəsi məqsədi ilə inşa edilmiş qalanın içərisində düzbucaqlı planda tikilmiş yaşayış binalarının qalıqlarına rast gəlinib. Burada təbii qayaların üzərində qazılmış daş hovuzlardan əhalinin su təminatında istifadə olunub.

Çalxanqala kəndində ötən əsrin sonlarında baş verən məlum hadisələr dövrü Qərbi Azərbaycandan – ata-baba torpaqlarımızdan didərgin düşərək Naxçıvana pənah gətirən soydaşlarımız məskunlaşıblar. Həmin insanlara dövlətimiz həyan durub, onların problemlərinin həllinə həssaslıqla yanaşıb. 2002-2004-cü illərdə bütün məişət şəraiti ilə təmin edilmiş 40-a yaxın ev tikilib, adamlar torpaq sahələri ilə təmin olunublar. Torpaqdan səmərəli istifadə edilməsi üçün onlara şərait yaradılıb, dövlətdən kredit götürənlər də olub. Bu vəsaitlə müxtəlif təsərrüfat sahələrini inkişaf etdirməklə həm öz rifah hallarını yaxşılaşdırıblar, həm də daxili bazara töhfələrini verirlər.

Ötən il kənddə kompleks quruculuq işləri aparılıb, yeni sosial obyektləri istifadəyə verilib. Həmin obyektlərdən biri Çalxanqala kənd tam orta məktəbinin binasıdır. Burada şagirdlərin bilikli, vətənpərvər gənclər kimi yetişdirilməsinə hər cür şərait yaradılıb. Gələcək perspektiv də nəzərə alınaraq inşa edilmiş 378 şagird yerlik yeni məktəb binasında 218 şagird təhsil alır.

Muxtar respublikada musiqi sahəsinin inkişafına xüsusi diqqət yetirilir. Musiqi məktəbləri üçün yeni binalar tikilir, orta ixtisas musiqi məktəblərinin fəaliyyəti gücləndirilir. Musiqi sahəsinə marağı olan gənclər bu məktəblərdə öz təhsillərini uğurla davam etdirirlər. Kənddə Uşaq Musiqi Məktəbinin yeni binasının istifadəyə verilməsi də kənd sakinləri üçün əlamətdar hadisələrdən biri olub. Yeni inşa olunan binada 26 sinif otağı, musiqi alətlərinin təmiri, direktor və müəllimlər otaqları, kitabxana və tədbirlər zalı vardır. Binada gələcək perspektiv nəzərə alınıb, uşaqların musiqinin sirlərinə yiyələnmələri üçün lazımi şərait yaradılıb. Bütün bunlar şagirdlərin rahat təhsil almasına, tədris prosesinin yüksək səviyyədə təşkilinə imkan verəcək.

Çalxanqalada kompleks quruculuq tədbirləri çərçivəsində yüksək keyfiyyətlə inşa olunaraq istifadəyə verilən həkim ambulatoriyası 2400-ə yaxın kənd sakininə xidmət edir. İki mərtəbədən ibarət olan həkim ambulatoriyasında 12 otaq vardır. Burada stomatoloq kabinəsi, əczaxana, doğuş, peyvənd və manipulyasiya otaqları, palatalar yerləşir. Ambulatoriyada 12 tibb işçisi çalışır.

Muxtar respublikamızda mahiyyət və məzmunca yeni təfəkkürün bəhrəsi olan kənd mərkəzlərinin sayı getdikcə artır. Çalxanqalada da artıq belə mərkəzin istifadəyə verilməsi regionda bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunu göstərir.

Çalxanqalada olarkən bu yaşayış məntəqəsinin sakinləri ilə də görüşdük. Kənd sakini Telman Məmmədov dedi ki, artıq uzun illərdir, ata-baba yurd yerlərimizdən ayrılıb Naxçıvana üz tutmuşuq. Gəlib Çalxanqalada məskunlaşmışıq. Dövlətimizin qayğısı yaşamaq-yaratmaq əzmimizi özümüzə qaytarıb. Bütün kənd adamları adından dövlətimizə minnətdarlığımı bildirirəm. Bu gün həyatımızın bütün sahələrini, muxtar diyarımızın ən ucqar dağ və sərhəd, ən kiçik yaşayış məntəqələrini əhatə edən qayğı hesabına regionumuz özünün intibah dövrünə qədəm qoyub. Elə Kəngərli rayonunda iqtisadiyyatın inkişafı, insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların məşğulluq probleminin həlli üçün məqsədyönlü addımlar atılır, tikinti-quruculuq işlərinin həcmi getdikcə öz coğrafiyasını genişləndirir.

Kənd təsərrüfatı kənd sakinlərinin gündəlik fəaliyyətinin ən başlıca sahələrindən biridir. Muxtar respublikada bitkiçilik sahəsində məhsuldarlığın artırılması, becərmə texnologiyalarının və aqrotexniki qaydaların lazımi səviyyəyə çatdırılması bu kənddə öz bəhrəsini verib. Qeyd edək ki, bu yurd yerimiz özünün dadlı-tamlı meyvələri ilə tanınır. Aqrar islahatlar başlanana qədər kənddə mövcud olan meyvə bağları qorunub saxlanılmaqla yanaşı, daha 49 hektar sahədə yeni meyvə bağları salınıb. Hər il həmin sahələrdən xeyli məhsul tədarük edilir. Burada qədim peşə olan arıçılığa da xüsusi diqqət yetirilir. Ümumiyyətlə, bu gün Çalxanqala kəndində istehsal edilən kənd təsərrüfatı məhsulları öz dadına-tamına və keyfiyyətinə görə nəinki muxtar respublikada, eləcə də bütün ölkədə məşhurdur. İndi ayrı-ayrı təsərrüfatlarda istehsal edilən məhsulların ölkə paytaxtından və digər regionlardan xüsusi sifarişçiləri var.

**Bu gün Çalxanqala muxtar respublikanın ən abad kənd yaşayış məntəqələrindən biridir. Şəhərlə kəndin arasındakı fərqin aradan götürüldüyü, müasir qəsəbəni xatırladan bu yaşayış məntəqəsində qarşılaşdığımız hər bir sakin ilə söhbətimizdə dövlətimizə minnətdarlıq edildi, yaradılan şəraitdən lazımınca istifadə ediləcəyinə əminlik ifadə olundu.**

**Səbuhi HÜSEYNOV**



# Milli idman növünə böyük dəstəyin ünvanı: Naxçıvan

**_Ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyasının məntiqi nəticəsi olaraq, Azərbaycan regionun lider dövlətinə çevrilmişdir. Dövlətimizin iqtisadi qüdrətinin ildən-ilə artması, bütün sahələr kimi, idmanın tərəqqisinə də öz müsbət təsirini göstərməkdədir. Bu gün idmana dövlət səviyyəsində yüksək qayğı və diqqət göstərilir. Paytaxtda və regionlarda bir çox olimpiya idman komplekslərinin, müasir idman zallarının tikilib istifadəyə verilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi bunu deməyə əsas verir._**

Azərbaycanın bir sıra mötəbər yarışlara ev sahibliyi etməsi, idmançılarımızın dünya və Avropa miqyaslı turnirlərdə təmsil olunması Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtmışdır.

Xalqımıza məxsus qədim milli idman növü olan güləş bu gün daha da inkişaf etdirilir və ildən-ilə bu sahədə yüksək nailiyyətlər qazanılır. Bu idman növü zəngin tarixə və özünəməxsus köklərə malikdir. Milli güləşin qədim elementlərinə Qobustan qayalarında, şifahi xalq ədəbiyyatında, klassik ədəbiyyatda rast gəlirik.

*Tarixə ekskursiya*

Güləş idmanın ən qədim növlərindən biridir. Hələ eramızdan 2500 il əvvəl Misirdə güləşlə məşğul olurdular. Qədim yunanlar da idmanın bu növünü sevirdilər. O vaxtlar, adətən, qumla örtülü meydançada güləşirdilər. İdmançıların çılpaq bədənlərinə qum yapışır və onların bədənləri nisbətən az sürüşkən olurdu; bu zaman idmançılar bir-birlərindən möhkəm yapışa bilirdilər. Pəhləvanlar meydanda dolaşır, elə bil ki, bir-birini başdan-ayağa süzür və birdən hücuma keçirdilər. Hər güləşçinin sevimli bir fəndi vardı. Biri öz rəqibinin ayağından tutmağa çalışır, o biri isə onun başını qoltuğu altında sıxırdı. Rəqibinin çiynini, kürəyini və ya dizini üç dəfə yerə vuran güləşçi qalib sayılırdı.

Müxtəlif ölkələrdə ayrı-ayrı güləşçilər bir çox fəndlərdən istifadə edirdilər. Müasir güləşçilər də bu fəndlərin bəzilərindən istifadə edirlər. Xüsusi geyimli güləşçilər xalça üzərinə çıxıb bir-birinin əlini sıxır və güləşməyə başlayırlar. Məqsəd rəqibin kürəyini yerə vurmaqdır. Buna "təmiz qələbə" deyirlər. Təmiz qələbə mümkün olmayanda xal hesabı ilə qalib müəyyənləşdirilir. Xallar hər bir uğurlu fənd üçün verilir. Sərbəst güləş, ilk baxışda, klassik güləşə oxşayır. Lakin klassik güləşdən fərqli olaraq, sərbəst güləşdə çarpaz vurmaq, badalaq gəlmək, beldən aşağı yapışmaq olar. Sərbəst güləşdə də bəzi xalqların güləş fəndlərindən istifadə edilir.



Xalqımızın yaddaşında olan milli güləş isə tarixən daha qədimdir. Güləşin qədimliyini sübut edən faktlardan biri Azərbaycanda toy və bayram şənliklərində insanların bu növdə özlərini sınamalarıdır. Azərbaycanda güləş yarışları xüsusi yerlərdə keçirilirdi ki, buna "zorxana" deyilir. Milli güləşin inkişaf etməsi və gənclərin hünərlərini nümayiş etdirən idman növünə çevrilməsi bir tərəfdən milli irsimiz və ənənələrimizlə bağlıdırsa, digər tərəfdən sonradan meydana gəlmiş peşəkar məktəblə əlaqədardır.

Azərbaycanda güləş peşəkar idman növü kimi öz təşəkkülünü ötən əsrin 50-ci illərində tapmışdır. "Kusturud" idman klubunun təşəbbüskarlarından və oradakı məşqələlərin iştirakçılarından olan əməkdar idman ustası Rza Baxşəliyev Azərbaycan Respublikasında peşəkar güləşin banilərindən sayılır.

*Güləş Federasiyasının böyük işi*

Naxçıvan Muxtar Respublikasında da qədim ənənəyə malik olan idmanın bu növü geniş yayılıb. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə yaradılan idman infrastrukturu diyarımızda idmanın inkişafına nə qədər önəm verildiyinin bariz nümunəsidir. Naxçıvanda güləşin geniş vüsət alması üçün Güləş Federasiyası bir çox tədbirlər həyata keçirir. Gənclərin bu sahəni seçməsi üçün hazırlanan planda əsas məqsəd ölkəmiqyaslı idmançılar yetişdirmək və gələcəkdə dünya arenalarında bayrağımızı yüksəldəcək gənclərə sahib olmaqdır.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının cari ildə gördüyü işlərlə yaxından tanış olmaq üçün qurumun sədr müavini Yaşar Səfərovla söhbətləşdik. Y.Səfərov son illər güləşin muxtar respublikada daha geniş yayıldığını vurğuladı: "Son illər Naxçıvan Muxtar Respublikasında güləşə olan maraq artıb. Demək olar ki, gəncləri bura dəvət etmək üçün məşqçilərimiz bütün gücləri ilə çalışırlar. Hazırda Güləş Federasiyasında 22 məşqçi fəaliyyət göstərir. Onların işini qənaətbəxş hesab etmək olar. Məşqçilərimizin də səyləri nəticəsində muxtar respublikada 1350 idmançı güləşin sirlərini öyrənir. Onlar arasında respublika yarışlarının, beynəlxalq turnirlərin qalibləri var".

Güləş Federasiyasının sədr müavini cari ildə keçirilən turnirlər barədə də danışdı. Yaşar Səfərov bu il Naxçıvan idmançılarının daha uğurla çıxış etdiyini bildirdi: "Cari ilin bu gününədək Güləş Federasiyası 2 daxili turnir və 2 muxtar respublika birinciliyi təşkil edib. Bununla yanaşı, idmançılarımız 2 dəfə ölkə səviyyəsində təşkil olunan turnirdə qüvvələrini sınayıblar. Yeniyetmələr arasında Azərbaycan birinciliyi və məktəblilərin 6-cı respublika oyunlarında naxçıvanlı güləşçilər iştirak ediblər. Həmçinin Naxçıvanda bu il ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş yunan-Roma güləşi üzrə gənclər arasında beynəlxalq turnir keçirilib. "Naxçıvan kuboku" adı altında keçirilən turnirdə güləşçilərimiz nəyə qadir olduqlarını nümayiş etdiriblər".

*Qazanılan uğurlar*

Yaşar Səfərov cari ilin onlar üçün uğurlu olduğunu, idmançıların keçirilən turnirlərdə böyük nailiyyətlər qazandıqlarını vurğuladı. Bəs hansı güləşçilərimiz təşkil olunan yarışlarda Naxçıvan məktəbini layiqincə təmsil ediblər? Y.Səfərov buna da aydınlıq gətirdi: "Fevral ayında Bakıda keçirilən beynəlxalq turnirdə 63 kq çəki dərəcəsində Təbriz Məmmədov yalnız finalda məğlub oldu. "Olimpiyaçılar aramızda" adı altında keçirilən yarışda Əmrah Məmmədov gümüş medala layiq görüldü. Balakən rayonunda keçirilən məktəblilərin 6-cı respublika birinciliyində 3 güləşçimiz mükafatçılar arasında yer aldı. 42 kiloqram çəki dərəcəsində Sərdar Əliyev bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək zirvəsinə qalxdı. Bağır Zeynalov (38 kiloqram) və Qoca Əhmədov (50 kiloqram) isə bürünc medalla kifayətləndilər. May ayında keçirilən yeniyetmələrin Azərbaycan birinciliyində Təbriz Məmmədov (63 kiloqram) gümüş medal qazandı. Ən böyük uğur isə Naxçıvan komandasının yunan-Roma güləşi üzrə gənclər arasında "Naxçıvan kuboku" uğrunda Beynəlxalq Turnirin qalibi olmasıdır.

Qurumun sədr müavini qarşıdakı turnirlər barədə də məlumat verdi: "Yeniyetmələr arasında güləşin sərbəst növündə Rəşid Məmmədbəyov adına turnir keçiriləcək. Həmin yarışda Naxçıvan güləşçiləri də öz güclərini sınayacaqlar. Bu turnirdən sonra isə "Hünər meydanı" adı altında yarış təşkil olunacaq ki, burda yalnız yunan-Roma güləşçiləri mübarizə aparacaqlar".

Sonda Yaşar Səfərov muxtar respublikada yaradılan şəraitdən, güləşçilərə göstərilən qayğıdan danışdı: "Naxçıvanda bu idman növünün inkişafı üçün xeyli iş görülüb. Biz də çalışırıq ki, etimadı doğruldaq və qazanılan uğurlarla Naxçıvanda güləşin hansı səviyyədə olduğunu nümayiş etdirək".

**Ceyhun MƏMMƏDOV**

## Bələdiyyə demokratik dövlət idarəetməsinin təsisatı kimi

"Ölkəmizdə bələdiyyə təhsili üzrə tədrisin keyfiyyəti ildən-ilə təkmilləşir, bu sahəyə olan kadr ehtiyacının qarşılanması məqsədilə ali təhsil ocaqlarında müvafiq ixtisaslar açılır. Naxçıvan Dövlət Universitetində də dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə tələbə qəbuluna başlanılmış, 2004-2005-ci tədris ilindən etibarən Bələdiyyə və turizm kafedrası yaradılmışdır". Bu fikirləri Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsində "Bələdiyyə demokratik dövlət idarəetməsinin təsisatı kimi" mövzusunda keçirilmiş diskussiyada universitetin rektoru, professor Saleh Məhərrəmov səsləndirmişdir.

Naxçıvan Bələdiyyəsinin sədri Nuraləm İbrahimov çıxışında bələdiyyə orqanlarının fəaliyyəti haqqında məlumat verərək bildirmişdir ki, bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi seçkili bələdiyyə orqanları olur və o, Azərbaycan Respublikası Konstitusiyası ilə səlahiyyətlərinə aid əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir.

Sonra Naxçıvan Bələdiyyəsinin şöbə müdiri İbrahim Həsənovun "Yerli əhəmiyyətli sosial məsələlərin həllində bələdiyyələrin rolu", universitetin Bələdiyyə və turizm kafedrasının müdiri Hafiz Hüseynovun "Bələdiyyələrin inkişafında kadr təminatı və bu sahədə görülən işlər", Naxçıvan Bələdiyyəsinin baş mütəxəssisi Akif Məmmədovun "Yerli əhəmiyyətli şikayət və təkliflərin həll edilməsində bələdiyyələrin rolu", universitetin Bələdiyyə və turizm kafedrasının müəllimi Flora Kərimovanın "Yerli özünüidarəetmə orqanlarının inkişaf perspektivləri və problemləri" mövzularında məruzələri dinlənilmişdir.

Sonda Naxçıvan Muxtar Respublikasının timsalında "Bələdiyyə demokratik dövlət idarəetməsinin təsisatı kimi" adlı diskussiyaya başlanılmışdır. Diskussiyada tələbələri maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

**Mina QASIMOVA**

## Ahıllar evinin sakinlərinə tibbi xidmət göstərilib

Muxtar respublikamızda ahıl insanların tibbi-sosial problemlərinin həlli daim nəzarətdə saxlanılır, onların sağlamlığına xüsusi diqqət göstərilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri ənənəyə sadiq qalaraq oktyabrın 10-da Ahıllar evində olublar. Onlar sakinləri müayinədən keçirib, xəstəliklərin qarşısının alınması və vaxtında müalicə edilməsi üçün onlara tibbi məsləhətlər veriblər. Bundan başqa, ehtiyacı olan ahıllar müvafiq texniki bərpa vasitələri ilə təmin olunublar.

**Xəbərlər şöbəsi**

## İkinci turun oyunlarına yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının təşkilatçılığı ilə XII muxtar respublika futbol çempionatında ikinci turun oyunlarına yekun vurulmuşdur.

Turun "Kəngərli" və "Dübəndi" komandaları arasında baş tutan ilk oyunu 5:5 hesablı bərabərliklə başa çatmışdır. "Sədərək"-"Əlincə" görüşündə sədərəklilər 3 top üstünlüyü ilə (5:2) qələbə əldə edə bilmişlər.

"Universitet"-"Batabat" qarşılaşmasında hesab 4:2 olmuşdur. Növbəti görüşdə yeni yaranmış "Araz-2" komandası "Babək" komandasının qapısından 3 cavabsız top keçirmişdir. Turun sonuncu oyununda öz meydanında "Arpaçay" komandasını qəbul etmiş "DİN FK" rəqibini 1:0 hesabı ilə məğlub etmişdir. İkinci turdan sonra turnir cədvəlində vəziyyət belədir:

| № | Komandalar | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | "DİN FK" Naxçıvan | 2 | 2 | 0 | 0 | 5-0 | 6 |
| 2. | "Universitet" NDU | 2 | 2 | 0 | 0 | 8-5 | 6 |
| 3. | "Araz-2" Naxçıvan | 1 | 1 | 0 | 0 | 3-0 | 3 |
| 4. | "Sədərək" Sədərək | 2 | 1 | 0 | 1 | 8-6 | 3 |
| 5. | "Batabat" Şahbuz | 2 | 1 | 0 | 1 | 4-5 | 3 |
| 6. | "Babək" Babək | 2 | 1 | 0 | 1 | 3-6 | 3 |
| 7. | "Kəngərli" Kəngərli | 2 | 0 | 1 | 1 | 6-7 | 1 |
| 8. | "Dübəndi" Ordubad | 2 | 0 | 1 | 1 | 5-9 | 1 |
| 9. | "Arpaçay" Şərur | 2 | 0 | 0 | 2 | 2-4 | 0 |
| 10. | "Əlincə" Culfa | 1 | 0 | 0 | 1 | 2-5 | 0 |

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

İsazadə Elxan Saleh oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Əlverdiyev Telman Yusif oğlunun adına verilmiş sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

"Elnur-Əyyub" Kiçik Müəssisəsinə məxsus sənədlər və möhür itdiyindən etibarsız sayılır.

*Allah rəhmət eləsin*

Naxçıvan Musiqi Kollecinin direktoru Yusif Babayev və kollecin kollektivi iş yoldaşları Nəzakət Fərzəliyevaya, anası
**SƏKİNƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 938